

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# UZAQLIQ

## Ölüm uzaqlıq deyil

**İnsan Allahın ən sevimli məxluqudur. Necə deyərlər, onun içində olanları fələk də bilmir. O qədər sirlər, o qədər qayğılar, o qədər arzular, xəyallar yatır insanın içərisində ki, onu çözməyə, onu oxumağa bir ömür bəs etmir. Görünür, elə bu səbəbdəndir ki, böyük Səməd Vurğun demiş, "dünya da sirrini sirdaşa", yəni insana açmır. Bilir ki, o sirr saxlamayacaq, o hardasa, nə vaxtsa açıb tökəcək bütün olanları. Və belə olan halda sirr öz mahiyyətini itirəcək, açılıb töküləcək ortaya. Amma...**

Bu dünyada elə insanlar, elə Allah bəndələri var ki, təkcə sirr dünyası deyil, həm də sirr quyusudu. Onun iç dünyasına nə düşdüsə, o quyuya nə atıldısa, ən güclü işığın altında da görmək mümkün deyil. Ona görə də həmin o sirr quyusunun tilsimini öyrənmək, "sim-sim"indən xəbərdar olmaq da çətindi. Hətta kol dibində, qapı arxasında dayanıb dinləsən də, lap "Ələddin" olsan da "sim-sim"i öyrənə bilməyəcəksən. Deməli, sonda yenə yük sənin çiyninə düşəcək və sən öz sirrinin qanadı altında xəyallara dalacaqsan. Və bir də baxıb görəcəksən ki, bu sirli dünyanın içi sirr quyusu olan insanlarından birinə çevrilmisən...

Bəli, mən indi tam əminliklə deyə bilərəm ki, ölüm uzaqlıq deyil. Yəni ölməklə uzaqlaşmaq mümkün olmur, əksinə, daha çox yaxınlaşırsan səndən qabaq ölmüşlərə, səndən qabaq köçmüşlərə. Və daha çox da arxada qalanları çəkirsən özünə tərəf, elə bil ki, onlara yol açmış olursan. Və sən bu məqamında və bu durumunda ən təmiz bəndə olursan. Heç kim sənə diş qıcamır... heç kim səni qısqanmır... heç kim səndən giley etmir. Və sən də öz növbəndə heç kimdən gizlənmirsən, daldalanmırsan, ehtiyatlanmırsan!.. Axı sən ölmüsən. Və deməli, sənin heç kimdən çəkinən yerin, heç kimdən gizlənmək amacın yoxdu. Sən Sənsən! Və mən də sənin sən olduğunu indi daha çox anlayıram. Çünki sən məndən danışırsan, səndən uzaqlaşmış birindən... Özü də o qədər rahat, arxayın danışırsan ki, sanki heç əvvəlki insan deyilsən. Danışığında nə qısqanclıq var... nə çəkinmək var... nə kimdənsə ehtiyatlanırsan... nə də ağlına gətirmirsən ki, kimsə bu söhbəti eşidib ona don geyindirər... Birlikdə gəzdiyimiz yerlərdən, yaşadığımız anlardan, xoş təəssüratlı məqamlardan... Bax, sən indi özünsən. Axı sən heç vaxt özün olmamısan. Qarşında heç bir sədd yoxdu. Və bu səddin olmaması da sənin özün olman üçün böyük bir meydan açıb - azadlıq meydanı, özünüifadə etmək meydanı!..

Hə, baxıram... Özümün olduğu dünyadan baxıram. Görürəm ki, hər şey nöqtəsinə, vergülünə kimi elə pıçıldayır, elə danışırsan ki, elə bil hansısa kitabdan bir səhifə oxuyursan... hansısa bir nağılı söyləyirsən... İlahi, o nə qədər səmimidi, o nə qədər gerçəkliyi söyləməkdə, etiraf etməkdə qətiyyətlidi. Axı o heç vaxt belə olmayıb - həmişə kimsə görər deyib, kimsə eşidər deyib. Və hətta mənim sevgi pıçıltılarıma, sevgi yazılarıma bir az sərt yanaşıb. O qədər açıq-saçıqlıq olmaz deyib. Amma indi özü danışır, özü söyləyir... Və deməli, mənim yoxluğum, mənim uzaqlaşmam onun rahatlığı, onun sərbəstliyidi, sevgimin azadlığıdı. Və:

**Yoruldum bitməyən dərddən,**
**Bu ölü bitməyən dərddən...**
**Uzağa getməyən dərddən -**
**Bəs mən necə uzaqlaşım?!**

**İçimdə söylənib durdum**
**Kim idim? - öyrənib durdum.**
**Mən qəmi göy dərib, durdum -**
**İndi necə uzaqlaşım?!**

**Qoymadım günüm gün olsun**
**İstəyim dönüb kin olsun...**
**Allah, kaş yuxum çin olsun -**
**Qoş bir köçə uzaqlaşım...**

**Kül altda közüm ağlasın**
**Dil altda sözüm ağlasın...**
**Özümü özüm ağlasın -**
**Bir "heç-heçə" uzaqlaşım...**

Deməli, uzaqlaşmaq və çıxıb getmək, elə çıxıb getdiyin yerdə də özünü yenidən tapmaq mümkündü. Mən bunu əminliklə vurğulayıram. Ona görə ki, köçənlər, gedənlər hamısı öz dəqiq ünvanlarındadılar. Onların söz, söhbəti, sevgisi, nifrəti aşkardı. Hər yerdə, hər məqamda danışılır və bundan da kimsə çəkinib üzülmür. Bax, bu mənada sən indi özünə bir də yaxşı bax. Onda görəcəksən ki, sənin də rahat, qayğısız günlərin yaxınlaşmaqdadır. Uzaqlaşan mən əslində sənə tam yaxınlaşmaqla sənə həm də özünü qaytarıram, çəkinməyən, sıxılmayan üzülməyən özünü!

***

Düşüncələr yaxamdan tutub məni hara çəkir çəksin, indiki anda mənim ruhuma da, ağlıma da hakim olan bir məqam var. Mən hələ də üz tutduğum uzaqlıqdan geriyə boylanıram və görürəm ki, səninlə üzbəüz dayanmışam. Danışırıq, görüşürük, kimlərisə mövzumuzun qəhrəmanı edirik, kimlərisə xatırlayırıq, amma bircə sevgimizdən danışmırıq. Çünki ondan danışmaq sənin üçün boş şeydi... səni rahatsız edir... səni guya ki, hər kəsə tanıdır... Amma bu sənin öz yaratdığın və bütün cəhdinlə qoruyub gizlətdiyin sirli dünyanın gözlərdən uzaq tutulması üçündür. Mən isə əksinə, haqdan gələnin, haqqın ürəyimə, ruhuma səpdiyi sevginin hər kəs tərəfindən görünməsini çox istəyirəm. Çünki o, bir varlığın içərisindəki başqa bir varlığın mövcudluğu deməkdir... Bu bir ürəyin içində ikinci ürəyin özəl dünya sahibinə çevrilməsidi. Belə olan halda niyə də onu gizlədim, niyə də onu görünməsinə problem yaradım?!

Bu yerdə ruhumun səsini eşidirəm. Və o səs mənə yazdığım misraları pıçıldayır.

**Sönən bir işıq üçün**
**Kipriklərini sıxma...**
**Xəyalında qurduğun -**
**Yolun sonuna çıxma...**

**Getsən özünlə birgə**
**Sevgini də apar, get**
**İçindəki ümidi -**
**Toz olmaqdan xilas et!**

**Sadəcə dodağının**
**Ucunda bir ad göyərt...**
**Hər dəfə o adı de -**
**Və ürəyini kövrəlt...**

İnsani duyğuların, bəşəri hisslərin sərhəddi olmur deyirlər. Amma insan bir çox hallarda özü öz hisslərinə, duyğularına, hətta dilinə sərhəd qoyur. Danışmaq istədiyini danışmır, demək istədiyini söyləmir, hissləri, duyğuları gözü yolda, gözü yaşlı qoyur. Və beləcə, həm də yarı yolda saxlayır. Təbii ki, bu da ona ürək bahasına başa gəlir. Ürək ağrısına, ürək sınmasına səbəb olur. Amma o, yolundan, dediklərindən dönmür. Çünki o həm sirli quyudu, həm də sevgi Tanrısının qulu. Deməli, burda bir yol qalır. O yolun da müşayətçisi xəyaldı. Sevən ürək, sirli ürək xəyallara sığınır... Onun qanadlarında özünə rahatlıq tapır. Özü özüylə danışır və deyir:

**Bir anlıq xəyalından**
**Gəlib keçsəm ürpənmə...**
**Durduğun yerdə dayan -**
**Göz də qırpma, tərpənmə...**

**Mən o yerə Pir! - deyib**
**Ömrümü sərdim üstə...**
**Möcüzə, həm sirr! deyib -**
**Şeh səpdim dərdim üstə...**

**Ümid hopmuş göz yaşı**
**Məni səndə qurutdu...**
**Səndən qopan qığılcım -**
**Gözlərimi durultdu...**

**İçimdəki son ümid**
**Alıb məni götürdü...**
**Durduğun yerə qədər -**
**Xəyal məni ötürdü...**

***

Bəli, mən gəldiyim qənaətin təsiri altında olmağıma baxmayaraq, yanılmadığımı düşünürəm. Bu qənaətin də mahiyyəti, necə deyərlər, əti, qanı olanı olduğu kimi görüb qəbul etməkdi. Tutaq ki, mən sənin gözlərinin özündə xəyalən yox, gerçəklik kimi, olduğun kimi gəlib dayanmaq istəyirəm. Bu anda hər kəs də məni görüb təəccüblənsə belə, görüb qəbul etmək zorunda qalacaq. Axı mən nə ilğımam, nə də kölgə!.. Mən səndə özünü tapmış bir Allah bəndəsi. Sən isə məndə özünü itirmiş bir ehtiyatlı, çəkingən, etiketləri şişirdən və onun qanadı altında kölgələnən, gizlənən, qorunan bir bəndə...

Bu dünyada təkcə qurub-yaratmaq, əl tutmaq, haya çatmaq, dəstək vermək hər şey deyil. Bu dünyada həm də sevib sevilməlisən. Onda tam olursan, bütöv olursan, mükəmməl olursan. Və mən əlimi ürəyimin üstünə qoyub and içə bilərəm ki, Allahın yaratdığı bütün bəndələr sevirlər. Sadəcə onlar sevgiləri xırdalayıb bölürlər ailəyə, uşağa, mala pula, peşəyə, həyatın özünə, dağa, daşa... Amma bu böldüklərinin hamısını etiraf edən, dilinə gətirən Allah bəndəsi olan - istər qız olsun, istər oğlan, istər qadın olsun, istər kişi çəkinmədən demir ki, mən filan qızı sevirəm, mən filan oğlanı sevirəm. Hətta özünü elə göstərir ki, guya o sevgiyə laqeyddi. Amma xəyalındakı, yuxularındakı, hətta ürəyindəki sevgi ünvanıyla keçirdiyi anlar onun ömrünün qızıl zaman kəsiyidir. O məhz o zaman kəsiyində dünyanın ən xoşbəxt bəndəsidi. Çünki o sevir! Çünki onu sevirlər!

Deyəsən söylədiklərim sizdə bir çaşqınlıq yaratdı. Çünki yazımın adı "Uzaqlaşma"dı. Və yazımın girişində də vurğulamışam ki, ölmək uzaqlaşmaq deyil. Və bu fikrimin üstünə yenidən qayıdıram. Gəlin razılaşın ki, bu dünyada ölümlə və yaxud ölməklə nədənsə xilas olmaq istəyi reallığa çevrilmir. Axı ölən cismdi. Ruh isə yaşayır. Deməli, mənim sevgim də ruhumun sarıldığı ünvandı. Onu yaşamına qadağa qoya bilməzsən. Amma tam səmimi deyim, eşit və istəsən də inan:

- Danış sevgimizdən... danış xəyallarımızdan... danış yaşadıqlarımızdan... Onlar sənə sıxıntı gətirməyəcək. Və unutma ki, mən hər gün uzaqlaşa-uzaqlaşa sənə daha çox yaxınlaşıram. Və hətta bir şeirimdə yazmışam ki:

**Xəyalımda nə varsa**
**Üst-üstə çinləyirən...**
**Özümlə danışanda -**
**Səni də dinləyirəm...**

**İçimdəki sükutu**
**Bağrın yardı pıçıltın...**
**Nəsə düşdü yadına -**
**Nə üçünsə hıçqırdın...**

**Çaşdım, yaşadıqlarım**
**Həm gerçəkdi, həm nağıl...**
**Bunlardan baş açmağa -**
**Qoymadın məndə ağıl!..**

... Ayrılıqlara tərs sillədi sevgi... Ayrılıqlar üzərində qələbədi sevgi... Bu pafoslu, amma içdən gələn fikrin mahiyyəti elə bizim hər birimizdə özünü təsdiqləyibdi. Yol gözləməyimizlə, yola salmağımızla, birgə həyatımızdakı qarşılıqlı diqqətimizlə və bir-birimiz üçün yaşamağımızla...

**Siz mənə bənd olmayın. Yazdıqlarım xəyallarım deyil, heç düşündüklərim də deyil. Yazdıqlarım yaşadıqlarımdı, yaşamaq istədiklərimdi. Bax, bu yaşadıqlarıma, yaşamaq istədiklərimə yolun uzaqlaşmaqdan keçdiyini son günlər daha yaxşı dərk etməyə başlayıram. Anlayıram ki, ölüm - uzaqlaşmaq bizi daha çox yaxınlaşdıracaq. Bu yaxınlıq üçün nə lazımdırsa, nə etmək gərəkdirsə, mən ondan çəkinmirəm. Sizi deyə bilmərəm... Seçim özünüzündü...**